BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2010*

# ABDULLA ŞAİQİN DRAM ƏSƏRLƏRİNDƏ FOLKLOR ROMANTİZMİ

**F.H.AĞAMALIYEVA**
***Bakı Dövlət Universiteti***
***ay.fidan@mail.ru***

*A.Şaiqin bir çox dram əsərlərinin mövzusu folklordan götürülmüşdür. Folklor materialı həyatı romantik rəngli tonlarda əks etdirdiyi kimi real göstərir. Yazıçı bir sıra pyeslərini («Ay-doğdu», «Həqiqətə doğru», «Yazıya pozu yoxdur», «İldırım», «Aldanmış ulduzlar», «Nüşabə» və s.) romantik üslubda yazmışdır.*

Abdulla Şaiqin dram yaradıcılığında folklordan istifadə geniş şəkildə özünü göstərir. Onun pyeslərindəki folklor üslubu romantizmdən qaynaqlanır. Məmməd Arif qeyd edir ki, «Dram yazan şəxs əvvəlcə öz əsərinin məfkurəvi qayəsini təyin etməlidir, yəni tamaşaçıya nə demək istədiyini, hansı böyük bir fikri təbliğ etmək istədiyini özünə aydınlaşdırmalıdır; bunsuz heç bir bədii əsər yarana bilmədiyi kimi, dram əsəri də yarana bilməz (12, 240). Abdulla Şaiq də dram əsərləri yazarkən, ilk növbədə bu tələbləri nəzərə almışdır. Abdulla Şaiqin dram yaradıcılığı, xüsusən ilkin dövrlərdəki pyesləri folklorla çox bağlıdır. Abdulla Şaiq dramaturgiyasındakı folklorla bağlılığı belə səciyyələndirir ki, «Ədəbi fəaliyyətə başladığım ilk illərdə məni ən çox məşğul edən sahələrdən biri xalq ədəbiyyatı idi. <...> Bakıya köçdükdən sonra xalq ədəbiyyatını daha ətraflı öyrənməyə başladım, bildiyim nağılları, tapmacaları, bayatılar və atalar sözlərini bir böyük dəftərə yazdım. Yay tətili zamanı müxtəlif qəzalardan gəlmiş tələbələr evlərinə qayıdarkən onların hər birinə bir dəftər verib xalq nağılları, atalar sözləri və tapmacalar yazıb gətirmələrini tapşırırdım» (15, 192).

A.Şaiqin uşaqlar üçün əsər yazmasının səbəbi, əsasən, onların nə teatr, nə kino, nə kitabxana, nə də klublarının olmaması idi. O, bunu belə yazırdı: «Balalarımıza məxsus nə teatr, nə kino, nə kitabxana, nə də klub vardı. Gənc nəslimizin bu vəziyyəti məni çox düşündürürdü. Buna görə də, bir zamanlar məktəblərdə gördüyüm işin bir qismini bədii yaradıcılıqla əvəz etdim» (16, 209). XX əsrin yazıçısı uşaqlar üçün əsər yazarkən keçmiş həyatın çətinliklərini, zülm və istismarı uşaqların qavraya biləcəyi tərzdə, onların dünyagörüşünə uyğun şəkildə təsvir etməli idi. Biz bu cür yaradıcılıq üsulunu A.Şaiqdə görürük. Onun belə yaradıcılıq üsulunu nəzərə alan A.Zamanov qeyd edir ki, «Ədibin uşaq əsərlərində hər şeydən əvvəl onun müəllimliyi özünü büruzə verir. Bu əsərləri yazarkən müəllif öz kiçik oxucularının maraq və psixologiyasını nəzərə almış, onlara yüksək bəşəri keyfiyyətlər aşılamaq məqsədi güdmüşdür (19, 14).

Əziz Mirəhmədov yazırdı ki, «İctimai vəziyyəti etibarilə xırda burjuaziyaya mənsub olması, uzun müddət Azərbaycan, Rusiya hadisələrindən kənarda yaşaması, habelə yarı dini, yarı dünyəvi təhsil-tərbiyə görməsi və s. səbəblər onun 1905-ci il fırtınasının məna və əhəmiyyətini vaxtında, aydın dərk etməsinə mane oldu. Odur ki,

1905-ci ildən ta Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər olan dövr Şaiq üçün axtarışlar dövrü, enişli-yoxuşlu bir yaradıcılıq dövrü olmuşdur» (9, 18). Ə.Mirəhmədovun bu yanaşmasında ziddiyyətli fikirlər özünü göstərir. O, belə bir həqiqəti nəzərə almaq istəmir ki, Şaiq yaradıcılığının ilk dövrünü folklor mərhələsi təşkil edir. A.Şaiq xalq içərisindən çıxmışdı. Şifahi xalq yaradıcılığını çox gözəl bilirdi. Yaradıcı şəxsiyyətin ömrünə 1905 və 1917-ci il inqilablarının siyasi mənasından qiymət vermək ən azı onun yaradıcılığını qiymətləndirməməkdir. Y.Qarayev də bu fikirdə idi ki, yaradıcılığın mükəmməl təhlilini məhz yaradıcının özündən, onun uşaqlıq dövründən, təhsilindən, şəxsiyyətindən, mühitindən, həyatından başlamaq lazımdır (7).

Abdulla Şaiqin dram yaradıcılığında folklor düşüncəsindən bol-bol istifadə olunmuşdur. Həm də A.Şaiq ictimai mövzulara meyl edən sənətkardır. O, əsərlərində əzən və əzilənlər sinfini təqdim edir, bir dramaturq kimi əzilənlərin tərəfində durur. O, əsərlərini oxunaqlı etmək üçün, həm də bədii təsir qüvvəsini gücləndirmək üçün folklor motivlərindən istifadə edir. Onun «İntiqamçı xoruz» pyesi də haqqın, ədalətin aradan çıxmasına, kəndli sinfinin mənafeyinin tapdalanmasına, bir sözlə, ağalar-qullar dünyasının mərhəmətsizliyinə qarşı yazılmışdır. «İntiqamçı xoruz» pyesində kəskin konflikt vardır. Əsər folklor motivləri ilə zəngin olsa da, dramaturq burada da ictimai ziddiyyətlərin baş verməsinin səbəblərinə toxunur. A.Şaiq əsərdə kəndli sinfinin nümayəndəsi Həsənlə fəhlə Aslanı öz şəxsiyyətləri uğrunda mübarizədə birləşdirir. M.Ağamirov həmin surətlərin hər ikisini yoxsullar, əzilənlər qütbünə daxil edir (1, 81). Onlarla varlılar arasında ictimai uçurum vardır. A.Şaiq bu uçurumu aradan qaldırmaq, problemi əzilənlərin xeyrinə həll etmək üçün folklor düşüncəsindən istifadə edir. Problemin bu cür həllinin tapılmasına A.Şaiqin yaradıcılığında çox rast gəlirik. Bu problemin həll edilməsi də A.Şaiqin baxışlarından irəli gəlir.

Dramaturqun əvvəlki əsərlərindən fərqli olaraq, bu pyesdə hadisələr dramatik şəkildə inkişaf edir, zülmün həddi-hüdudu qarşısında kəndlilər hüquqsuz insanlar kimi təsvir olunurlar. Əsərin hadisələrinin gedişatından aydın olur ki, müəllif ictimai münasibətlərin həllini inqilabda görür. Lakin inqilab etmək şüuru hələ əsərin qəhrəmanı Həsəndə formalaşmamışdır. Əslində bu çatışmazlığı A.Şaiqin romantizmində görürük. Sentimental düşünən bir dramaturq kimi A.Şaiq ictimai münasibətlərin həllini folklor motivinin köməyində görür. Son tikəsini yoxsul qadınla bölən Həsənə Sənəm qarı xoruz bağışlayır və deyir ki, bu intiqamçı xoruzdur. Keçələ həsr olunmuş nağıllarda axırıncı tikəsini kiminləsə bölməsindən sonra ona sehrli əşya verilir ki, bu sehrli vasitənin köməyi ilə keçəl sinfi düşməninə qalib gəlir. Folkloru gözəl bilən A.Şaiq bu motivdən istifadə edərək əsərdə ictimai konflikti belə asanca həll edir. M.Ağamirovun A.Şaiqin fəlsəfi və dünyabaxışı haqqında, xüsusilə onun inqilaba meylli olduğu barədəki fikirləri ilə razılaşmaq olar. O, Şaiqin dram əsərlərində inqilab əhval-ruhiyyəsi görür və Şaiqi bu fikirdə olan yazıçı hesab edir. Xüsusilə A.Şaiqin «İntiqamçı xoruz» əsərində «inqilabla doğar yeni bir cahan» fikrinə istinad edərək filosof bu əsərdə onun fikirlərində inqilabın zəruriliyi qənaətini görmüş, onun ictimai-simyasi baxışlarının mahiyyətini inqilabla bağlamışdır. Lakin bu pyesdə dramaturqun inqilabi çağırışları çox dərindən hiss olunmur. Bu, ilk baxışdan da belədir. A.Şaiq bilirdi ki, ağa-nökər münasibətləri, ziddiyyətləri maarifləndirmənin köməyi ilə də həll oluna bilir. Səhnə əsəri də maariflənmənin ən tərbiyəvi üsuludur. Həm də pyes uşaqlar üçün yazıldığından, uşaq dünyasına uyğunlaşdırıldığından konfliktin folklor motivi əsasında həll olunması A.Şaiqin uğurudur. Nağıllardakı əhvalatlar bu pyesdə

təkrar olunur. Həsən yol yoldaşı bəyin mehtəri olan oğlanın qisasını ağa və bəylərdən almağa gedir. Əsərin ikinci pərdəsində Həsənin xoruzuna güvənib bəylərdən qisas alması təsvir olunur. Xoruz sehrlidir, ona kim toxunsa yapışır. Kim köməyə gəlirsə bir-birinə yapışır. Xoruz onları oynadır. Həsən xoruzun sehri ilə Aslanı xilas edir.

A.Şaiq pyesdə konflikti həll edərkən uşaq dünyagörüşünü nəzərə almışdır. Bu zaman o, folklor romantizmi ilə realizmi birləşdirir. XX əsrin görkəmli tədqiqatçılarının da əsərlərində Şaiqin ancaq romantizminin, realizminin xüsusiyyətlərindən danışılır. M.Arif Şaiqi yaxşı və ya pis romantik olduğu üçün deyil, yaxşı realist olmadığı üçün tənqid etmişdir. Yaşar Qarayev onun fikrinə qarşı çıxaraq öz fikrini belə ifadə edirdi ki, «tədqiqatçılar heç bir romantiki pis romantik olduğu üçün ittiham etmirlər, əksinə, onları realist olmadıqları üçün tənqid edirlər… Halbuki belə yanaşma üsulunun özü elmi cəhətdən şikəst və qüsurludur» (8, 25). XX əsrin ilk illərindəki ədəbi hərəkatdakı romantizmin mövqeyini M.Cəfər düzgün başa düşmüşdü. O, bu cərəyanın yaradıcılıq metodu kimi realizmdən fərqləndirsə də, ona qarşı durmadığını, lakin ona rəğbət bəslədiyini, ondan müsbət mənada təsirləndiyini qeyd edirdi (3, 24-31). Onun bu fikrini davam etdirən Kamal Talıbzadə də Şaiqin romantizminin ideya-bədii prinsiplərinin bəzi nöqtələrdə realizm ilə birləşdiyini qeyd edib yazırdı ki, bu iki əsas ədəbi cərəyanı bir-birini rədd etmir, onlar bir-birilərini təsdiq edə-edə yaşayır, ədəbi prosesdə qabaqcıl rol oynayırdılar (18, 82).

A.Şaiqin xalqla bağlılığı, bu romantizmin və realizmin ideya köklərinin haradan qaynaqlandığı məsələsinə toxunulmur. Məsələn, M.İbrahimov 1966-cı ildə yazdığı «Abdulla Şaiqin realizminin bəzi xüsusiyyətləri» məqaləsində Şaiq yaradıcılığındakı ictimai mənanı, fəlsəfi fikirləri, ictimai mühiti diqqətə çatdırır, əsərlərindəki romantizm və realizm görüşlərinə toxunur (4). O, Abdulla Şaiqin realizminə M.F.Axundovun, C.Məmmədquluzadənin, Sabirin davamı kimi baxır, bir sıra yeni xüsusiyyətlərini də göstərir (6, 354). Sənətkarın real və ya romantik-ideal qəhrəmanları ilə mütərəqqi şəxsi fikirlərini verməyə tam hüququ vardır. Sənət əsərində eyni zamanda müəllifin hər şeyi dərindən hiss edən ürəyi döyünməzsə, gələcəyi aydın görən gözləri gülməzsə, xalq ruhunu, zəmanə ruhunu ifadə edən hər bir sözü, kəlməsi ürək qanı ilə yazılmazsa, sənətə səmimiyyət, böyük ehtiraslar, nəcib hisslər, duyğular yol tapa bilməz (2, 6). İnsan psixologiyasnda əmələ gələn dəyişikliklər ədəbiyyatın, dramaturgiyanın mövzusunu, yaradıcılıq üsulunu, hətta üslubunu dəyişirdi. A.Şaiqin romantik üslubdan realist üsluba keçməsində məhz bu meyarların təsiri olmuşdur. Təbiilik, sadəlik və səmimiyyət bədii yaradıcılığı zinətləndirən, zahirən sərt və soyuq görünən həqiqətləri belə mülayimləşdirən ılıq, hərarətli bir nəfəslə qızdıran, gözəlləşdirən, bununla da oxucu qəlbində məhrəmlik vasitəsinə çevrilən sənətkarlıq keyfiyyətlərindəndir (14, 78). Bu sözlər də A.Şaiqi xarakterizə etmək üçün deyilmişdir.

A.Şaiqin romantizmini başa düşmək üçün S.Hüseynin romantik sənətkarlara verdiyi qiymətə nəzər yetirək. O yazırdı ki, romantik mühərrirlər heç bir qanuna tabe olmaq istəməzlər. Onların şəxsi zövqləri onlar üçün bir qanundur. Onlar – romantiklər öz düşüncə və mühakimələrində sərbəstdirlər. Onlar hər şeydə gözəlliyi görürlər və bu yolda hissiyyati-şədidəyə namütənahi bir surətdə qapılırlar. Hələ bəziləri tarixi simaları istədikləri təbiət və xasiyyətləri vermək, tarixin xilafına hərəkət etdirib söz söylətdirmək səlahiyyətinə də malik bulunurlar (3, 12) Lakin burda deyilənlərin heç də hamısını A.Şaiqə ehtiva etmək olmaz. Məmməd Cəfər A.Şaiqin yaradıcılığında türkçülük ideyalarının özünü büruzə verdiyini qeyd edir (3, 216).

C.Cəfərov «Ədəbiyyat və incəsənət» qəzetində (1947, 25 fevral) A.Şaiqin ilk dramlarını nağıl-pyeslər adlandırır (10, 190).

Məmməd Arif Hüseyn Caviddən danışarkən «Cavid teatrımıza nə vermişdir?» sualına cavab vermək lazım gəlsə, birinci növbədə onu deyə bilərik ki, Cavid səhnəmizə ilk dəfə şeiriyyət gətirmişdir» qeydini edir (11, 115). Bu sualı A.Şaiqin də yaradıcılığına versək, onun dramaturgiyasının səhnəmizə nə verdiyini düşünsək, ilk növbədə bütöv obrazlar sistemi verdiyini deyə bilərik. Bura uşaq dramaturgiyasının obrazlar qalereyası da bağlıdır. Dram əsəri nə qədər qüvvətli olarsa, səhnə də o qədər güclü olar (11, 122).

M.Rzaquluzadə Şaiqin dram yaradıcılığını inkişaf etməkdə olan, yeni-yeni ideyalarla, obrazlarla zənginləşən dramaturgiya hesab edirdi. O, bu xüsusiyyəti qeyd edərək yazırdı ki, «Tənqid-təbliğ teatrı üçün ilk pyeslərini yazdıqdan sonra («Aydoğdu», «Həqiqətə doğru», «Yazıya pozu yoxdur» - 1921) ədib «İldırım» (1927), «Aldanmış ulduzlar» (1928), «Nüşabə» (1945) dramlarını yaradır (17, 356).

Kamal Talıbzadə də A.Şaiqin dram yaradıcılığındakı folklor romantikasını yüksək qiymətləndirmişdir. O yazmışdır ki, «Azərbaycan uşaq və gənc tamaşaçılar teatrımızın fikri-estetik inkişafında Abdulla Şaiqin əsərləri çox böyük rol oynamışdır. «Gözəl bahar», «Çoban», «İntiqamçı xoruz», «Xasay», «Eloğlu», «Vətən», «Qaraca qız», «Bir saatlıq xəlifəlik» və s. pyesləri uşaq teatrımızın sütunları olmuşdur» (17, 9). C.Hacıyev də həmin əsərləri A.Şaiqin ilk dram əsərləri adlandırır (40, 381). M.Arif qeyd edir ki, uşaq yazıçısı kimi şöhrət qazanan Abdulla Şaiq məktəb səhnəcikləri üçün bədii əsərlər yazmışdı və bu səhnəciklər o zamankı məktəb həyatında yeni bir hadisə idi. Bədii tərbiyə üçün məktəb səhnəsinin böyük rola malik olduğunu yəqin edən Şaiq müəllim bir neçə əsərini məktəb səhnələri üçün pyes halına salmaqla bərabər, sonralar Gənc Tamaşaçılar Teatrı üçün bir sıra dram əsərləri yaratmışdı (11, 178; 13, 174-187). O, vətənpərvərlik ruhunda yazılan «Eloğlu», «Vətən», «Xasay» kimi dramları tərbiyəvi mövzuda yazılan əsərlər hesab edirdi.

Abdulla Şaiqin ilkin dramlarında folklordan bəhrələnmə daha çoxdur, bu pyeslər, əsasən, nağıl süjeti və motivlərinə görə kiçikyaşlı oxucuların diqqətini cəlb edirdi. Şaiq pedaqoq olaraq bilirdi ki, folklorun tərbiyəvi əhəmiyyəti vardır. Sənətkar ona görə də, ilk dramlarının süjet xəttini şifahi xalq yaradıcılığının qaynaqları əsasında qururdu. O, həm də çalışırdı ki, süjetdə konfliktin həlli balacalar üçün anlaşıqlı olsun. Bunun üçün Azərbaycan nağılları əsas vasitə idi.

## ƏDƏBİYYAT


1. Ağamirov M. Abdulla Şaiqin dünyagörüşü. Bakı: Maarif, 1983, 242 s.
2. Cəfər M. Həyatın romantikası. Bakı: Azərnəşr, 1968, 172 s.
3. Cəfər M. Azərbaycan ədəbiyyatında romantizm. Bakı: Azərbaycan SSR EA, 1963, 217 s.
4. «Ədəbiyyat və incəsənət» qəzeti, Bakı, 1976, 26 fevral.
5. Hacıyev C. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Azərbaycan Universiteti, 1955, 435 s.
6. İbrahimov M. Seçilmiş əsərləri. 4 clddə, III c. Bakı: Azərnəşr, 1972, 484 s.
7. Qarayev Y. Meyar – şəxsiyyətdir. Bakı: Elm, 1988, 212 s.
8. Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980, 258 s.
9. Mirəhmədov Ə. Abdulla Şaiq. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, 1956, 141 s.
10. Məmmədov Ə. Abdulla Şaiq. Bakı: Gənclik, 1983, 212 s.
11. Məmməd Arif. Sənətkar qocalmır. Bakı: Yazıçı, 1980, 368 s.

12. Məmməd Arif. Seçilmiş əsərləri. 3 cilddə, I c. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, 1967, 620 s.
13. Məmməd Arif. Şaiq müəllim. Şaiqanə yad et. Bakı: Gənclik, 231 s.
14. Mustafayev İ.N. Yazıçı idealı və həyat həqiqəti. Bakı: Yazıçı, 1989, 232 s.
15. Şaiq A. Xatirələrim. Bakı: Gənclik, 1973, 364 s.
16. Şaiq A. Xatirələrim. Bakı: Uşaqgəncnəşr, 1961, 224 s.
17. Şaiq A. Seçilmiş əsərləri. Bakı: Gənclik, 1984, 444 s.
18. Talıbzadə Kamal. Seçilmiş əsərləri. 2 cilddə, II c. Bakı: Azərnəşr, 1994, 431 s.
19. Zamanov A. Abdulla Şaiq. Bakı: Azərbaycan SSR siyasi və elmi bilikləri yayan cəmiyyət, 1956, 21 s.

## ФОЛЬКЛОРНЫЙ РОМАНТИЗМ В ДРАМАТИЧЕСКИХ ПРОИЗВЕДЕНИЯХ А.ШАИГА

**Ф.Г.АГАМАЛИЕВА**

### РЕЗЮМЕ

Тема в большинство драматических произведениях А.Шаиги взята из фольклора. Фольклорный материал отражает жизнь как реально, а также в романтических красочных тонах. Писатель некоторые свои пьесы («Айдогду», «Хагигата догру», «Язые позу йохдур», «Илдырым», «Алданмыш улдузлар», «Нушаба»» и др.) написал в романтическом стиле.

## FOLKLORE ROMANTIZM IN DRAMATIC WORKS BY A.SHAIG

**F.H.AGAMALIYEVA**

### SUMMARY

The theme of the most dramatic works of A.Shaig refers to the folklore. Folklore materials reflect the life as real as in romantic colourful tones. The writer wrote a number of his plays (“Aydogdu”, “Hagigata dogru”, “Yazıya pozu yoxdur”, “İldırım”, “Aldanmısh ulduzlar”, “Nushaba”) in the romantic style.